# Avtonəqliyyat vasitələrinin könüllü sığortası

# QAYDALARI

**BAKI-2014**

## ANLAYIŞLAR

Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları daşıyır:

**Sığortaçı -** «Meqa Sığorta» ASC;

**Sığortalı -** Sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan, Sığorta müqaviləsinin tərəfi;

**Sığorta olunanlar** –Bu Qaydaların məqsədləri üçün sığorta hadisəsi zamanı avtonəqliyyat vasitəsində olan və ya ona minən, yaxud ondan çıxan (düşən) səlahiyyətləndirilmiş sürücü və (və ya) sərnişinlər;

**Sığorta obyekti** – Sığortalının yaxud sığorta olunanın sığortalanmış avtonəqliyyat vasitəsi ilə bağlı qanunazidd olmayan əmlak mənafeyi;

**Sığorta predmeti -** Bu Qaydalara əsasən sığortalanan avtomobil, həmin avtomobilin sahibinin mülki məsuliyyətinin yaranması halı və həmin avtomobilin sürücüsü və sərnişinləri;

**Faydalanan şəxs -** Sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Maddə 25. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması.
Maddə 26. Sığorta müqaviləsinin qüvvəyə minməsi.
Maddə 27. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri.
Maddə 28. Sığorta haqqının hesablanması və ödənilməsi.
Maddə 29. Sığorta haqqının vaxtında ödənilməməsi.
Maddə 30. Valyuta haqqında qeyd-şərt.
Maddə 31 Sığortaçı tərəfindən nəzarət.
Maddə 32. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri.
Maddə 33. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı.
Maddə 34. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri.
Maddə 35. Sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti.
Maddə 36. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları.
Maddə 37. İtkilərin qarşısının alınması və azaldılması.
Maddə 38. Zərərin azaldılması məqsədilə çəkilən xərclər.
Maddə 39. Subroqasiya hüququ.
Maddə 40. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti.
Maddə 41. Mübahisələrin həlli qaydası.
Maddə 42. Marağın keçməsi.

**Azadolma məbləği -** sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsi;

**Mühüm şərtlər** – Sığorta müqaviləsində, yaxud sığorta şəhadətnaməsində göstərilmiş və sığortalı tərəfindən yerinə yetirilməməsi sığortaçının sığorta ödənişi verməkdən imtina etməsi və ya sığorta müqaviləsini yaxud sığorta şəhadətnaməsini ləğv etməsi üçün əsas olan şərtlər;

**Səlahiyyətləndirilmiş sürücü** – sığorta müqaviləsi ilə sığortalanmış avtomobili qanuni əsaslarla (yazılı etibarnamə, yol vərəqəsi) idarə etmək hüququ olan fiziki şəxs;

**Avtonəqliyyat vasitəsi** – Sığorta müqaviləsində göstərilən, bu Qaydalara uyğun olaraq sığortalanmış və ya istismarı ilə əlaqədar sığorta təminatının verildiyi nəqliyyat vasitəsi;

**Avtonəqliyyat vasitəsinin istismar olunması** – Avtonəqliyyat vasitəsinin ərizə forması və ya sığorta müqaviləsində göstərilmiş məqsədlərə müvafiq olaraq istismar olunması;

**Avtonəqliyyat vasitəsinin tam məhv olması** – avtomobilin tam məhv olması (avtomobilin sığorta hadisəsindən əvvəlki vəziyyətə çatdırılması üçün təmiri və ya bərpasına tələb olunan xərclərin avtomobilin bazar dəyərinin 75%-ni və ya daha çox hissəsini təşkil etməsi), yaxud oğurlanması və ya qaçırılması halında;

**Sərnişin** - Sığorta hadisəsi zamanı avtonəqliyyat vasitəsində olan, lakin onun idarə edilməsinə aidiyyatı olmayan şəxs;

**Tibbi xərclər** – Avtonəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində sığorta olunanın zəruri olaraq məruz qaldığı və sənədləşdirilmiş sığorta hadisəsi ilə bağlı olan tibbi xərclər;

**Ümumi əmək qabiliyyətinin daimi itirilməsi** – vaxt keçdikcə bərpa oluna bilməyən, ümumi əmək qabiliyyətinin tam və ya qismən itirilməsi (əlillik);

**Ərizə** - Sığorta olunmaq məqsədilə sığortalı tərəfindən doldurulan ərizə forması: ərizə formasında sığorta predmetinə dair sığortalı tərəfindən göstərilən bütün məlumat və halların həqiqətə uyğun və dolğun olması bu sığorta müqaviləsinin mühüm şərtidir;

**Assistans şirkəti** - sığorta sahəsində yardımçı hüquqi şəxs.

## I Fəsil

## Avtonəqliyyat vasitəsinə dəymiş zərərin sığortası

### Maddə 1. Sığorta riskləri

Bu Fəsil əsasında bağlanan sığorta müqaviləsinə görə Sığortaçı, həmin sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində Sığortalı ilə razılaşır ki, əgər sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində aşağıda qeyd olunan sığorta risklərinin təsiri nəticəsində avtonəqliyyat vasitəsi həmin avtonəqliyyat vasitəsinin təmir edilməsini və ya dəyişdirilməsini zəruri edən dərəcədə zədələnərsə, məhv olarsa və ya oğurlanarsa və belə zədələnmə, məhv olma və ya oğurluq bütün Fəsillərə aid olan ümumi istisnalar və I Fəslə aid olan xüsusi istisnaların qüvvəsi altına düşməzsə, Sığortaçı Sığortalıya belə zədələnmənin, məhv olmanın və ya oğurluğun nəticəsində dəymiş zərərin əvəzini bu Qaydalarda nəzərdə tutulan qaydada ödəmə, zədələnmiş avtonəqliyyat vasitəsinin əvəz edilməsi və ya təmir edilməsi (Sığortaçının öz mülahizəsi əsasında) yolu ilə, sığorta müqaviləsində hər bir avtonəqliyyat vasitəsi üçün nəzərədə tutulan sığorta məbləği çərçivəsində ödəyəcək:

1.1. Sığortalıya bu Qaydalar əsasında aşağıdakı bəndlərin birində və ya bir neçəsində qeyd olunan risklər nəticəsində avtomobilə dəyə bilən zərərlərdən sığorta təminatı verilir:

1.1.1. Avtonəqliyyat hadisəsi – yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların həlakına və ya müxtəlif dərəcəli bədən xəsarəti almasına, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, nəqliyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir;

1.1.2. Atılmış və ya düşmüş əşya – avtomobilin hissələrinə zərər vurmadan rəng örtüyünün nöqtələr şəklində zədələnməsi halı istisna olmaqla, avtomobilin xarici səthinə daş, qar, buz və digər əşyaların atılması, dəyməsi və ya düşməsi;

1.1.3. Üçüncü şəxsin qanunazidd hərəkəti – Avtonəqliyyat vasitəsinin oğurlanması və qaçırılması zamanı avtonəqliyyat vasitəsinə ziyan vurulması, avtonəqliyyat vasitəsinin ön və arxa şüşələrinin və yan pəncərəsinin sınması və üçüncü şəxslərin digər qanunazidd hərəkətləri nəticəsində avtonəqliyyat vasitəsinə ziyan vurulması;

1.1.4. Oğurluq, quldurluq, qaçırma və soyğunçuluq; Oğurluq - özgənin əmlakını gizli olaraq talama; Quldurluq - özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı

olan basqın; Qaçırma – avtonəqliyyat vasitəsini talama məqsədi olmadan qanunsuz ələ keçirmə; Soyğunçuluq – özgənin əmlakını açıq talama.

1.1.5. Yanğın və partlayış - a) yanğın – alovlanma mənbəyindən asılı olmayaraq maddi ziyan vuran yanma, o cümlədən yüksək temperaturun, yanğın məhsullarının, eləcə də yanğının söndürülməsi üçün istifadə olunmuş su, köpük və digər vasitələrin təsiri, habelə yanğının birbaşa təsiri; b) partlayış – qazların genişlənməyə meylliliyi nəticəsində böyük həcmdə enerjinin qısa müddət ərzində məhdud ölçülü məkandan sürətlə çıxaraq azad olması prosesi;

1.1.6. Təbii fəlakət – sel, daşqın, zəlzələ, fırtına, qasırğa, tufan, dolu və digər təbii hadisələr;

1.1.7. Heyvanların hərəkəti – avtomobilin salonuna vurulan zərərlər istisna olmaqla, heyvanların və quşların hərəkəti.

**Maddə 2. Sığorta predmeti**

2.1. Bu Fəsil üzrə sığorta predmeti sığortalanmış avtonəqliyyat vasitəsidir.

2.2. Avtonəqliyyat vasitəsi istehsalçı tərəfindən nəzərdə tutulmuş bütün komplekti ilə birlikdə sığortalanmış hesab olunur.

2.3. Sığorta müqaviləsində ayrıca olaraq göstərildiyi hallar istisna olmaqla, xüsusi rənglənmə, aeroqrafiya, maqnitofonlar, radioötürücü vasitələr, telefonlar, radar detektorları və ya hər hansı digər rabitə vasitələri və ya onların köməkçi aksessuarları, skanlaşdırma cihazları, televizorlar, stereo sistemləri, işıqlandırma qurğuları və ksenon faralar və təkərlər (şin və disklər) də daxil olmaqla bütün aksessuarlara və cihazlara münasibətdə bu sığorta ilə təminat verilmir (Avtonəqliyyat vasitəsinin istehsalı zamanı istehsalçı tərəfindən quraşdırıldığı hallar istisna olmaqla).

**Maddə 3. I Fəslə aid olan Sığorta risklərindən istinalar və ya sığorta təminatında məhdudiyyətlər.**

Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, aşağıdakılara münasibətdə sığorta təminatı verilmir:

3.1. Sığorta hadisəsi nəticəsində avtonəqliyyat vasitəsinin digər hissələrinin də eyni vaxtda zədələnməsinin baş verdiyi hallar istisna olmaqla, avtonəqliyyat vasitəsinin hərəkəti zamanı təkər şinlərinin və disklərinin zədələnməsi;

3.2. Dəyərdən düşmə;

3.3. Avtonəqliyyat vasitəsinin vəziyyətini onun sığorta hadisəsindən əvvəlki vəziyyəti ilə müqayisədə yaxşılaşdıran hər hansı təmir və ya dəyişdirilmə;

3.4. Əldən çıxmış fayda və digər dolayı itkilər;

3.5. Avtonəqliyyat vasitəsinin bütövlükdə və ya onun ayrı-ayrı hissə və qovşaqlarının təbii aşınması, onun əmtəə görünüşünün itməsi, istehsalat və ya təmir zamanı buraxılmış nöqsanlar;

3.6. Avtonəqliyyat vasitəsinin hissələrinin nasazlığının, yağlama vasitələrinin sızması, avtonəqliyyat vasitəsinin daxilinə xarici əşyaların və maddələrin düşməsi (hidrozərbə və s.) nəticəsində baş verdiyi hallar da daxil olmaqla, avtonəqliyyat vasitəsinin istismarı nəticəsində onun hissələrinin, qovşaqlarının və ya aqreqatlarının sınması, sıradan çıxması və ya nasaz vəziyyətə düşməsi;

3.7. Tentin zədələnməsi və ya oğurlanması - yük avtomobillərinin, minik avtomobillərinin yük daşıyan modifikasiyalarının, qoşqu və yarımqoşquların sığortası zamanı;

3.8. Avtonəqliyyat vasitəsinin və ya ona sahibliyin üçüncü şəxslərə könüllü verilməsi nəticəsində, belə könüllü vermənin dələduzluq, mənimsəmə və ya aldatma niyyətilə qəsdən fakt haqqında yalan təsəvvür yaratmanın nəticəsi olub-olmamasından asılı olmayaraq Sığortalıya dəyən zərər;

3.9. Sığortalının, səlahiyyətləndirilmiş sürücünün və ya sərnişinlərin sığorta hadisəsinin baş vermə anında nəqliyyat vasitəsində olan əmlakına vurulan ziyan və ya belə əmlakın məhv olması; 3.10. Hər hansı təmir vasitəsinin və ya alətinin oğurlanması;

3.11. Aşağıdakı hallar istisna olmaqla, qarajda və ya qapalı vəziyyətdə saxlanılmadığı hallarda, avtonəqliyyat vasitəsinin oğurlanması, oğurluğa cəhdin, vandalizmin və ya qərəzli hərəkətlərin nəticəsində avtonəqliyyat vasitəsinin məhv edilməsi və ya ona maddi ziyanın dəyməsi nəticəsində yaranan zərər:

3.11.1. Bütün qapıların, pəncərələrin və digər dəliklərin istehsalçının nəzərdə tutduğu vasitələrlə qapadılması və açarların həmin vasitələrdən aralı və təhlükəsiz yerdə saxlanılması;

3.11.2. Belə birbaşa maddi ziyan və ya oğurluq ilə əlaqəli olan hər hansı sığorta vəsatətinin (tələbinin) zorakı daxilolmanın baş verməsini sübut edən dəlillərlə əsaslandırılması;

3.11.3. Avtonəqliyyat vasitəsinin təchiz edildiyi, Sığortaçıya bildirilmiş və onunla razılaşdırılmış siqnalizasiya və (və ya) avtonəqliyyat vasitəsinin mühafizəsinin digər sistemlərinin işlək vəziyyətdə olması və istifadə edilməsi;

3.12. Yazılı və ya şifahi formada olmasından asılı olmayaraq girov, şərtli satış, icarə və ya digər müqavilə və yaxud hər hansı razılaşma əsasında qanuni şəkildə girov saxlayan, alıcı, icarədar və ya avtonəqliyyat vasitəsi üzərində qanuni sahibliyi həyata keçirən digər şəxs tərəfindən saxlanılan avtonəqliyyat vasitəsinin qeyri-qanuni satışı, mənimsənilməsi və ya gizlədilməsi.

**Maddə 4. Sığorta ödənişi**

4.1. Sığortaçı sığorta hadisəsi nəticəsində Sığortalıya dəymiş zərərin əvəzini aşağıdakı qaydada ödəyir:

4.1.1. Avtonəqliyyat vasitəsinə qismən ziyan vurulması halında aşağıdakı məbləğlərdən ən az olanı:

4.1.1.1. Ziyan vurulmuş avtonəqliyyat vasitəsinin texniki və xarici vəziyyətinin ziyanın vurulduğu andan əvvəl olan vəziyyətinə qaytarılması üçün zəruri olan təmir xərcləri;

4.1.1.2. Ziyan vurulmuş avtonəqliyyat vasitəsinin zədələnmiş müvafiq hissələrinin eyni növlü və eyni keyfiyyətli hissələrlə dəyişdirilməsi xərcləri;

Sığorta müqaviləsində aşınma faizi təsbit edildiyi hallarda, ehtiyat hissələrinin əvəzinin ödənilməsi xərcləri aşınma faizinə müvafiq olaraq azaldılır.

4.1.2. Avtonəqliyyat vasitəsinin tam məhv olması halında aşağıdakı məbləğlərdən ən az olanı:

4.1.2.1. Sığortaçının avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlarından imtina etməsi şərtilə, avtonəqliyyat vasitəsinin sığorta hadisəsinin baş vermə anından sonrakı vəziyyətinə uyğun gələn bazar qiyməti çıxılmaqla, onun sığorta hadisəsinin baş vermə anından əvvəlki bazar qiyməti;

4.1.2.2. Sığortaçının avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlarından istifadə etməsi şərtilə, ziyan dəymiş avtonəqliyyat vasitəsinin eyni növlü, eyni keyfiyyətli və işlək vəziyyətli digər avtonəqliyyat vasitəsi ilə əvəz edilməsi xərcləri, və ya:

4.1.2.3. Avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqların Sığortaçıya keçməsi şərtilə, sığorta müqaviləsi üzrə müəyyən edilmiş sığorta məbləği;

4.1.3. Avtonəqliyyat vasitəsinin oğurlanması halında aşağıdakı məbləğlərdən ən az olanı:

4.1.3.1. Oğurlanmış avtonəqliyyat vasitəsinin eyni növlü, eyni keyfiyyətli digər avtonəqliyyat vasitəsi ilə əvəz edilməsi xərcləri;

4.1.3.2. Sığorta müqaviləsində göstərilmiş avtonəqliyyat vasitəsi üzrə müəyyən edilmiş sığorta məbləği.

4.2. Avtonəqliyyat vasitəsinin təmir xərcləri Sığortaçının, yaxud Sığortaçının təyin etdiyi assistans şirkətinin seçdiyi təmir emalatxanası tərəfindən aparılmış hesablamalar əsasında müəyyən edilir.

**Maddə 5. Sığorta məbləği və sığorta dəyəri**

5.1. Sığorta məbləği sığorta müqaviləsində təsbit edilmiş və sığortalanmış risklər üzrə Sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddidir.

5.2. Sığorta məbləği Sığortalı ilə Sığortaçı arasında razılaşma əsasında müəyyənləşdirilir və avtonəqliyyat vasitəsinin sığorta müqaviləsinin bağlandığı yerdə və tarixdə olan həqiqi dəyərindən sığorta dəyərindən artıq ola bilməz.

5.3. Sığorta məbləği sığorta obyektinin sığorta müqaviləsi bağlanan andakı pul formasında qiymətləndirilməsindən irəli gələn həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çox qat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır. Bu halda sığorta haqqının artıq ödənilmiş hissəsi geri qaytarılmır, Sığorta müqaviləsində sığorta məbləğinin çox göstərilməsi Sığortalının yalan məlumat verməsi nəticəsində yaranarsa, Sığortaçı müqavilənin etibarsız hesab edilməsini və ona dəyən zərərin ödənilməsini tələb edə bilər.

5.4. Sığorta müqaviləsində göstərilən sığorta obyekti Sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun həqiqi dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır.

5.5. Sığortalının sığorta müqaviləsində əhatə olunan risklərlə bağlı zərərlər üçün digər sığortaçı(lar)dan ödəniş almaq hüququ varsa, Sığortaçı zərərə görə Sığortalı qarşısında digər sığortaçı(lar) ilə birgə, hər birinin məsuliyyət həddinə mütənasib olaraq məsuliyyət daşıyır.

**Maddə 6. Ön, arxa şüşələrə və yan pəncərələrə dəymiş ziyan**

6.1. Sığortaçı sığortalanmış avtonəqliyyat vasitəsinin ön, arxa şüşələrə və yan pəncərələrinə vurulmuş ziyanin əvəzini Sığortalıya aşağıda göstərilən qaydada ödəyir:

6.1.1. Ön, arxa şüşələrin və (və ya) yan pəncərələrin sınması və sığortalanmış avtonəqliyyat vasitəsinin gövdəsinin sınmış şüşə ilə cızılması hallarında sığorta ödənişi ön, arxa şüşələrin və (və ya) yan pəncərənin dəyişdirilməsi və ya belə ziyanın təmiri qiyməti olacaq.

6.1.2. Bu maddə əsasında hər bir sığorta olunmuş avtonəqliyyat vasitəsi üzrə zərərin əvəzinin ödənilməsi sığorta müqaviləsində razılaşdırılmış məbləğ həddində olacaqdır.

6.2. Bu maddə yalnız eyni hadisənin nəticəsində avtonəqliyyat vasitəsinə hər hansı başqa ziyan dəymədikdə və ya o zədələnmədikdə tətbiq edilə bilər. Əks halda ziyanın ödənilməsi 4-cü maddədə müəyyən edilmiş ziyanın ödənilməsinin ümumi qaydası əsasında həyata keçirilməlidir.

**Maddə 7. Qismən sığorta**

Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) Sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**Maddə 8. Qalıqlara olan hüququn keçməsi**

8.1. Avtonəqliyyat vasitəsinin tam məhv olması halında avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlardan istifadə etmək seçimi Sığortaçıya məxsusdur. Sığortalı Sığortaçının razılığı olmadan əmlaka olan hüquqlarından ikincinin xeyrinə imtina etmək hüququna malik deyil.

8.2. Avtonəqliyyat vasitəsinin tam məhv olması və ya onun oğurlanması nəticəsində Sığortalıya dəymiş zərərin əvəzini ödəmiş və yaxud onun ayrı-ayrı hissələrini dəyişdirmiş Sığortaçı qalıqlara olan hüquqlarından istifadə etmək qərarına gələrsə, Sığortalının avtonəqliyyat vasitəsinə və ya onun dəyişdirilmiş hissəsinə olan hüquqları Sığortaçıya keçir. Bu halda Sığortalı həmin hüquqların Sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri, o cümlədən müvafiq orqanlarda avtonəqliyyat vasitəsinin qeydiyyatdan çıxarılması və Sığortaçının adına qeydiyyata salınması ilə bağlı olan işləri öz hesabına görməlidir.

8.3. Oğurlanmış avtonəqliyyat vasitəsi sığorta ödənişinin verilməsindən əvvəl və ya sonra aşkar edilərsə, Sığortaçının öz mülahizəsi əsasında avtonəqliyyat vasitəsini özündə saxlamaq və yaxud onu Sığortalıya qaytarmaq hüququ vardır. Sonuncu halda avtonəqliyyat vasitəsinə görə alınmış sığorta ödənişi Sığortaçıya geri qaytarılmalıdır. Bu halda Sığortaçı avtonəqliyyat vasitəsinə yalnız oğrunun və ya oğruların vurduğu zərərə görə bu Qaydaların müddəalarına və istisnalarına müvafiq olaraq məsuliyyət daşıyacaq.

## II Fəsil

## Mülki məsuliyyətin sığortası

**Maddə 9. Sığorta predmeti və sığorta riski**

9.1. Bu Fəsil üzrə sığorta predmeti avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətidir.

9.2. Bu Fəsil əsasında bağlanan sığorta müqaviləsinə görə Sığortaçı, həmin sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində Sığortalı ilə razılaşır ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsi bütün Fəsillərə aid olan Ümumi istisnalar və II Fəslə aid olan Xüsusi istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən üçüncü şəxsə bədən xəsarəti yetirilməsi, onun ölümü və ya onun əmlakına ziyanın dəyməsi ilə nəticələnən və Sığortalının hüquqi məsuliyyətinin yaranmasına səbəb olan qəza törədərsə, Sığortaçı sığorta müqaviləsində təsbit edilmiş məsuliyyət həddi çərçivəsində Sığortalıya, onun ödəməyə hüquqi məsuliyyət daşıdığı və bütün Fəsillərə aid olan Ümumi istisnalar və II Fəslə aid olan Xüsusi istisnaların qüvvəsi altına düşməyən zərərlərin əvəzini aşağıda göstərilən qaydada ödəyəcəkdir:

Sığortaçı hətta Sığortalıya qarşı irəli sürülmüş tələb və ya iddiaların əsassız, saxta və ya yalan olması halında belə ölüm, bədən xəsarəti və ya əmlaka ziyan vurulması ilə əlaqədar olaraq Sığortalıya qarşı irəli sürülmüş tələb və ya iddialarla bağlı Sığortalını müdafiə etmək hüququna və belə tələb və iddiaların araşdırılması və həllində tam sərbəstliyə malikdir. Lakin Sığortaçı həyata kecirilmiş sığorta ödənişlərinin nəticəsində sığorta müqaviləsində təsbit olunmuş və onun məsuliyyət həddini ifadə edən məbləğin bitməsi halında, hər hansı tələb və ya məhkəmə qərarları ilə bağlı məbləği, yaxud iddianın müdafiəsi ilə əlaqədar məhkəmə xərclərini və digər xərcləri ödəməyəcək.

9.3. Bu Qaydalara əsasən bağlanmış sığorta müqavilələri üzrə mülki məsuliyyətin sığortası avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində “İcbari Sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tələb olunan məsuliyyət hədlərindən artıq olan məsuliyyətə qarşı sığorta təminatı verir.

9.4. Avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının ərazisindən kənarda, lakin sığorta müqaviləsində göstərilmiş ərazi hüdudları çərçivəsində yerləşdikdə, sığorta təminatı hər hadisə üçün müqavilədə razılaşdırılmış əlavə azadolma məbləğinin tətbiq edilməsi şərtilə verilir.

9.5. Məsuliyyəti sığortalanan şəxsin hüquqi şəxs olması halında, həmin hüquqi şəxslə yanaşı sığorta müqaviləsində səlahiyyətləndirilmiş sürücü kimi göstərilən onun işçilərinin məsuliyyəti də sığortalanmış hesab edilir.

9.6. Bu Fəsil üzrə sığorta riskinə Sığortalının özü, yaxud onun etibar etdiyi şəxs sığortalanmış avtonəqliyyat vasitəsindən istifadə edərkən üçüncü şəxslərə vurduğu zərərin əvəzini ödəmək öhdəliyi ilə əlaqədar onun əmlak mənafelərinə zərər dəyməsi daxildir.

**Maddə 10. II Fəslə aid xüsusi istisnalar**

10.1. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, bu sığorta ilə aşağıdakılara təminat verilmir:

10.1.1. Sığortalının işçisinin avtonəqliyyat vasitəsinin sərnişini olarkən Sığortalı ilə əmək münasibətlərindən irəli gələn peşə vəzifələrinin icrası zamanı və bununla bağlı ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;

10.1.2. Avtonəqliyyat vasitəsinin sərnişini kimi hərəkət edən Sığortalının hər hansı ailə üzvünə münasibətdə yaranan məsuliyyət;

10.1.3. Sığortalının hər hansı müqavilə ilə öz üzərinə götürdüyü və belə müqavilənin mövcud olmaması halında yarana bilməyən hər hansı məsuliyyət;

10.1.4. Avtonəqliyyat vasitəsinin altında olan hər hansı körpüyə, viaduka, nəqliyyat magistralına və ya bunlara bənzər başqa tikiliyə avtonəqliyyat vasitəsinin titrəməsi və ya onun daşıdığı yükün çəkisinin ağırlığı nəticəsində dəyən ziyan.

10.1.5.Əldən çıxmış fayda və ya digər dolayı zərərlər üçün məsuliyyət;

10.1.6.Cərimələr və ya mənəvi zərərlər ücün təzminat ödəmək öhdəliyi;

10.1.7.Çirklənmə, buxarlanma, his, tüstü, işlənmiş qaz, turşular, qələvilər, toksik kimyəvi maddələr, mayelər və ya qazlar, materialların tullantıları və ya qıcıqlandırıcı təsiri olan başqa zəhərli və çirkləndirici maddələrin torpağa, atmosferə və hər hansı su kanallarına və ya hovuzlara ifraz edilməsi, axması və ya tullanmasından irəli gələn məsuliyyət.

**Maddə 11. Sığorta ödənişi**

11.1. Sığortaçı Sığortalının aşağıdakı xərclərinin əvəzini ödəyir:

11.1.1. Sığortaçının ilkin razılığı əsasında Sığortalı ilə üçüncü şəxslər arasında məhkəmədən kənar razılaşma əsasında müəyyən edilmiş təzminat öhdəliklərinin məbləği;

11.1.2. Üçüncü şəxslərə zərər vurulması ilə əlaqədar olaraq, məhkəmə qərarı ilə Sığortalının üzərinə qoyulan təzminat ödənişlərinin məbləği;

11.1.3. Sığortaçının ilkin razılığı əsasında üçüncü şəxslərin irəli sürdüyü tələblərdən müdafiə olunmaq və bu tələblərin tənzimlənməsi məqsədi ilə Sığortalının çəkdiyi bütün xərclər;

11.1.4. Sığortaçının təminat verdiyi və onun göstərişlərinə əməl edilməsi üçün zərərlərin azaldılması məqsədilə çəkilən zəruri, əsaslandırılmış, ağlabatan və sənədləşdirilmiş xərclər.

11.2. Yuxarıda sadalanan bütün xərclərə münasibətdə sığortaçıların məsuliyyətinin ümumi həcmi heç bir halda sığorta müqaviləsində təsbit edilmiş müvafiq məsuliyyət həddini aşa bilməz.

## III Fəsil

## Sərnişinlərin və səlahiyyətləndirilmiş sürücülərin fərdi qəza sığortası

### Maddə 12. Sığorta predmeti və sığorta riski

12.1. Bu Fəsil üzrə sığorta predmeti sığorta olunanların həyat və sağlamlığıdır.

12.2. Bu Fəsil üzrə sığorta riskinə avtonəqliyyat vasitəsinin bütün Fəsillərə aid olan ümumi istisnalarda, habelə I və III Fəsillərə aid olan xüsusi istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən qəza törətməsi nəticəsində sığorta olunanın həyat və sağlamlığına ziyan dəyməsi daxildir

12.3. Bu Fəsil əsasında bağlanan sığorta müqaviləsinə görə Sığortaçı, həmin sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində Sığortalı ilə razılaşır ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsinin bütün Fəsillərə aid olan Ümumi istisnalar və I və III Fəsillərə aid olan xüsusi istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən qəza törətməsi nəticəsində sığorta olunanın həyat və sağlamlığına ziyan dəyərsə və belə ziyan I və III Fəsillərə aid olan xüsusi istisnaların qüvvəsi altına düşməzsə, Sığortaçı sığorta olunana və ya onun qanuni vərəsələrinə bu Qaydaların 14-cü maddəsinə müvafiq olaraq zərərin əvəzini ödəyəcəkdir.

12.4. Əgər müqavilədə razılaşdırılmışdırsa, bu Fəsil üzrə sığorta təminatına sərnişinlərin və səlahiyyətləndirilmiş sürücülərin tibbi xərcləri də daxil edilə bilər. Bu zaman sığorta riskinə avtonəqliyyat vasitəsinin bütün Fəsillərə aid olan ümumi istisnalar və I və III Fəsillərə aid olan xüsusi istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən qəza törətməsi nəticəsində sığorta olunanın həyat və sağlamlığına ziyan dəyməsi ilə bağlı tibbi xərclərə məruz qalması daxildir. Bu Qaydaların «Sərnişinlərin və səlahiyyətləndirilmiş sürücülərin fərdi qəza sığortası» Fəsli üzrə sığorta təminatının Sığortalı tərəfindən əldə edilməsi şərtilə Sığortaçı Sığortalı ilə razılaşır ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsinin bütün Fəsillərə aid olan ümumi istisnalarda və I və III Fəsillərə aid olan xüsusi istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən qəza törətməsi nəticəsində sığorta olunanın həyat və sağlamlığına ziyan vurularsa, Sığortaçı Sığorta olunana və ya onun qanuni vərəsələrinə belə qəzanın nəticəsində onların məruz qaldığı tibbi xərclərin əvəzini, həmin tibbi xərcləri təsdiq edən müvafiq sənədlərin Sığortaçıya təqdim edilməsi şərtilə ödəyəcəkdir.

### Maddə 13. III Fəslə aid Xüsusi istisnalar

Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, bu sığorta ilə aşağıda sadalananların nəticəsi olaraq sığorta olunanların ümumi əmək qabiliyyətini itirməsi və ya ölümü hallarına təminat verilmir:

13.1. Sui-qəsd və ya sui-qəsdə cəhd və ya bilə-bilə özünə bədən xəsarəti yetirmə;

13.2. Avtonəqliyyat vasitəsini idarə edən səlahiyyətləndirilmiş sürücünün ruhi pozğunluq vəziyyətində olması;

13.3. İnsan həyatını xilas etmək məqsədilə edildiyi hallar istisna olmaqla, bilərəkdən özünü təhlükə altına atma.

**Maddə 14. Sığorta ödənişi**

14.1. Sığorta ödənişinin həcmi qəza nəticəsində alınan zədələrin ağırlığından asılı olaraq sığorta məbləğinin aşağıdakı faizlərini təşkil edir:

14.1.1. Ölüm halında – 100 %;

14.1.2. Fərdi qəzanın nəticəsi olaraq aşağıdakı bədən xəsarətləri nəticəsində ümumi əmək qabiliyyətinin daimi itirilməsi:

| | |
|---|---|
| Hər hansı bir ətrafın (ayaq, pəncə, əl və ya bilək) itirilməsi | 100 % |
| Hər iki gözdə görmə qabiliyyətinin tam itirilməsi | 100 % |
| Çarpayı və ya əlil arabasına bağlılıqla nəticələnən iflic | 100 % |
| Tam ruhi pozğunluq | 100 % |
| Yuxarıda göstərilənlərdən başqa əmək qabiliyyətinin tam və daimi itirilməsi | 100 % |
| Nitqin tam və bərpa olunmaz şəkildə itirilməsi | 75 % |
| Hər iki qulaqda eşitmə qabiliyyətinin tam və bərpaolunmaz şəkildə itirilməsi | 75 % |
| Bir gözün görmə qabiliyyətinin tam və bərpa olunmaz şəkildə itirilməsi | 50 % |
| Bir qulaqda eşitmə qabiliyyətinin tam və bərpa olunmaz şəkildə itirilməsi | 50 % |
| Budun və ya çiynin tam hərəkətsizliyi | 40 % |
| Dizin, dirsəyin və ya biləyin tam hərəkətsizliyi | 25% |
| Əlin baş barmağının itirilməsi | 10% |
| Əlin şəhadət barmağının itirilməsi | 5% |
| Əlin hər hansı digər barmağının itirilməsi | 2% |
| Ayağın baş barmağının itirilməsi | 10% |
| Ayağın hər hansı digər barmağının itirilməsi | 3% |

14.2. Əgər fərdi qəzanın nəticələri sığorta olunanın həmin hadisənin baş verməsindən əvvəl mövcud olmuş hər hansı vəziyyəti və ya fiziki catışmazlıqları səbəbindən ağırlaşarsa, həmin nəticələrə münasibətdə bu sığorta ilə həyata keçiriləcək ödəniş məbləği, belə ağırlaşmanın olmadığı hal üçün ödənilməli olan ağlabatan məbləğə bərabər olur.

14.3. Yuxarıda göstərilməyən bədən xəsarətləri nəticəsində əmək qabiliyyətinin hər hansı daimi itirilməsinə görə ödəniş sığorta olunanın məşğuliyyət növü nəzərə alınmadan yuxarıda göstərilmiş bədən xəsarətləri ilə müqayisədə onların ağırlıq dərəcələrinə müvafiq olaraq veriləcəkdir.

14.4. Bu sığortanın əhatə etdiyi bir və ya bir neçə fərdi qəzaya münasibətdə sığorta müqaviləsi üzrə bir sığorta olunan üçün ödənilən məbləğ bir şəxs üçün müəyyən edilmiş ümumi sığorta məbləğini aşa bilməz.

14.5. Sığorta müqaviləsində tibbi xərclər üzrə sığorta təminatı nəzərdə tutulmuşdursa, tibbi xərclər üçün bir nəfərə ödənilməli olan məbləğ, bunlardan hansının daha az olmasından asılı olaraq ya bu Qaydaların III Fəslinə müvafiq olaraq Sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta məbləğinin 5 % həddində, yaxud da 1 500 manat təşkil edəcək. Sığorta müqaviləsinin III Fəsli ilə ödənilməli olan bir nəfərlik ümumi məbləğ sığorta müqaviləsinin həmin Fəsil üzrə sığorta müqaviləsində təsbit edilmiş bir nəfərlik ümumi sığorta məbləği ilə məhdudlaşır.

Lakin bu tibbi xərclər üçün Sığortalı başqa sığorta üzrə ödəniş almaq hüququna malikdirsə, Sığortaçı yuxarıda göstərilən hədlərə müvafiq olaraq yalnız belə ödəniş məbləğilə ümumi tibbi xərclər arasındakı fərqə görə məsuliyyət daşıyır.

**Maddə 15. Fərdi qəzanın nəticələrinin təzahür müddəti**

15.1.Fərdi qəza anından 12 (on iki) ay müddətində baş verən və həmin fərdi qəzanın səbəb olduğu bədən xəsarətinin nəticəsi olan ölüm, fərdi qəza nəticəsində baş verən ölüm sayılır.

15.2.Əmək qabiliyyətinin daimi itirilməsinə görə ödənişlər, belə əmək qabiliyyətinin itirilməsinin fərdi qəza hadisəsinin nəticəsində baş vermiş olması, belə fərdi qəzanın baş vermə tarixindən 12 (on iki) ay ərzində təzahür etməsi və 12 (on iki) ay ərzində davam etməsi halında həyata keçirilir.

15.3.Əmək qabiliyyətinin daimi itirilməsi dedikdə, Sığorta olunanın hər hansı peşəkar və ya işguzar fəaliyyətilə məşğul olmasına tam mane olan və 12 (on iki) ay davam edən və bu müddətin bitməsindən sonra bərpa olunması mümkün olmayan əmək qabiliyyətinin itirilməsi başa düşülür.

## IV Fəsil

## Bütün Fəsillərə aid olan ümumi qaydalar

### Maddə 16. Sığorta sinifləri

Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu aşağıdakı sinifləri əhatə edir:
16.1. Avtonəqliyyat vasitələrinin sığortası;
16.2. Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası;
16.3. Avtonəqliyyat vasitələrinin sərnişinlərinin və səlahiyyətləndirilmiş sürücülərin fərdi qəza sığortası;

### Maddə 17. Sığortalının fəaliyyəti, üçüncü şəxslər

17.1. Bu Qaydaların Sığortalıya aid olan bütün müddəaları sığorta müqaviləsində göstərilmiş səlahiyyətləndirilmiş sürücüyə, sığorta olunanlara və faydalanan şəxsə da eyni dərəcədə aid edilir.

17.2. Bu sığortanın məqsədləri üçün Sığortalının fəaliyyətinə qanunvericiliyə, sığorta müqaviləsinə, vəzifə təlimatlarına, etibarnaməyə və ya mövcud adətlərə müvafiq olaraq Sığortalının adından çıxış etmək üçün onun səlahiyyətləndirilmiş işçilərinin, vəzifəli şəxslərinin və digər nümayəndələrinin hərəkətləri də aid edilir.

17.3. Aşağıdakılardan başqa (bu Qaydaların 17.4-cü bəndində nəzərdə tutulan hal istisna olmaqla) bu Qaydaların məqsədləri üçün sığorta və daşıma müqaviləsi üzrə tərəf hesab olunmayan, yolnəqliyyat hadisəsi nəticəsində bütün zərər çəkən hüquqi və fiziki şəxslər, habelə onların qanuni vərəsələri (hüquqi varisləri) üçüncü şəxslər sayılırlar:

- Avtonəqliyyat vasitəsinin sahibi və ya sürücüsü;
- Öz ailə üzvlərinin (həyat yoldaşı, valideynləri, övladları, nəvələri) səhhətinə və ya əmlakına zərər vuran Avtonəqliyyat vasitəsinin sahibinin, yaxud sürücüsünün həmin ailə üzvləri; 
- Avtonəqliyyat vasitəsinin sahibinin xidməti vəzifəsini yerinə yetirən işçisi.

17.4. Yol hərəkəti zamanı iki və daha artıq avtonəqliyyat vasitəsinin toqquşması nəticəsində zərər çəkənlərdən hər biri digəri qarşısında üçüncü şəxs sayılır.

### Maddə 18. Sığorta təminatı

18.1. Bu Qaydalar üzrə sığorta təminatı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2010-cu il 23 noyabr İ-189 nömrəli əmri ilə təsdiq edilmiş "Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası üzrə sığorta Qaydaları" ilə əhatə olunmayan avtonəqliyyat vasitələrinə şamil edilir.

18.2. Bu Qaydaların yalnız Sığorta müqaviləsində göstərilmiş Fəsilləri üzrə verilmiş sığorta təminatı etibarlı hesab olunur.

### Maddə 19. Bütün Fəsillərə aid olan Sığorta risklərindən istinalar və ya sığorta təminatında məhdudiyyətlər

Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir:

19.1. Sığortalının qəsdli hərəkətləri;

19.2. İonlaşma, radiasiya, yaxud nüvə yanacağının və ya nüvə tullantılarının istifadəsindən, həmçinin bu istisnanın məqsədləri üçün özünü dəstəkləyən hər hansı atom nüvəsinin parçalanması prosesini daxil edərək, nüvə yanacağının alovlanmasından ortaya çıxan radioaktivlik nəticəsində ətraf mühitin çirkləndirilməsindən bilavastiə, yaxud dolayı yolla yaranan hər hansı məsuliyyət, zərər və ya ziyan;

19.3. Bu Qaydalara əsasən aşağıda göstərilən hər hansı bir hadisə nəticəsində hər hansı vəsatətin (tələbin) ortaya çıxması hallarında, Sığortalı bədbəxt hadisənin, itkinin, zərərin və ya məsuliyyətin (qanunvericiliyin tələblərinin bunu tələb etdiyi dərəcədə yerinə yetirilməsi halları istisna olmaqla) aşağıda göstərilən hər hansı hadisələrdən və ya onların nəticələrindən asılılığının, əlaqəsinin və onların nəticəsi

olmamasını sübut etməlidir. Zəruri sübutların olmaması halında, Sığortaçı belə vəsatətə görə heç bir məsuliyyət daşımır. Bu hadisələrə daxildir:

Müharibə, düşmən ölkələrinin əməlləri, düşmən aktları, hərbi əməliyyatlar (müharibənin elan olunub-olunmamasından asılı olmayaraq), vətəndaş müharibəsi, qiyamlar, buntlar, tətillər, ictimai intizamsızlıqlar, əmək iğtişaşları, üsyanlar, inqilablar, hərbi və ya qəsbkar hakimiyyətin əməlləri, həbs qoyulma və ya müsadirə, yaxud bunları etməyə cəhd və ya yuxarıda sadalanan hadisələrdən hər hansı birinin bilavasitə və ya dolayı nəticələri, qanunsuz və ya qərəzli hərəkətlər vasitəsi ilə və ya hər hansı qanunsuz təşkilatın adından və ya onunla birlikdə hərəkət edən şəxslər tərəfindən törədilən aktların nəticəsində baş verən hadisələr.

19.4. Avtonəqliyyat vasitəsinin məcburi qanunsuz zəbt etmə halları istisna olmaqla, avtonəqliyyat vasitəsinin toksik, spirtli və narkotik sərxoşluq vəziyyətində olan sürücü tərəfindən idarə edilməsi;

19.5. Avtonəqliyyat vasitəsinin təlim məqsədilə, yaxud yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, icarə üçün, davamlılıq sınaqlarında, həmçinin avtonəqliyyat vasitələrinin satışı ilə bağlı hər hansı məqsədlə istifadə edilməsi;

19.6. Avtonəqliyyat vasitəsinin bu Qaydalara əsasən səlahiyyətləndirilmiş sürücü olmayan şəxs tərəfindən idarə edilməsi;

19.7. Sunami, zəlzələ və ya vulkan püskürməsi ;

19.8. Həddən artıq yükləmə və ya dartma da daxil olmaqla avtonəqliyyat vasitəsinin onun texniki təyinatına uyğun gəlməyən məqsədlərlə istifadə edilməsi;

19.9. Qanunvericiliyə əsasən avtonəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə əsas verən nasazlıqları olan avtonəqliyyat vasitəsinin istismar olunması;

19.10. Sığortalıya və ya ona etibar edilmiş digər şəxslərə məxsus olan və Sığortalının məsuliyyət daşıdığı əmlaka onların avtonəqliyyat vasitəsinin daxilində və ya üzərində daşınması zamanı ziyan dəyməsi, məhv olması və ya oğurlanması;

19.11. Avtonəqliyyat vasitəsinin hər hansı digər avtonəqliyyat vasitəsini yedəkləməsi zamanı baş verən hər hansı zərər, xəsarət və ya yaranan məsuliyyət;

19.12. Avtonəqliyyat vasitəsinin hər hansı digər nəqliyyat vasitəsinə yüklənməsi və ya həmin nəqliyyat vasitəsindən boşaldılması və ya avtonəqliyyat vasitəsinin hər hansı digər nəqliyyat vasitəsilə daşınması zamanı yaranan zərər və ya məsuliyyət;

19.13. Avtonəqliyyat vasitəsinin yüklənməsi və ya boşaldılması zamanı yaranan zərər və ya məsuliyyət;

19.14. Avtonəqliyyat vasitəsinin Sığortanın əhatə etdiyi ərazidən kənar istismar olunması halında. Sığortanın əhatə etdiyi ərazi Sığortaçının bu barədə qabaqcadan xəbərdar edilməsi və onun yazılı formada razılığının alınması şərtilə genişləndirilə bilər.

19.15. Sərnişinlərin ödənişli daşınması;

19.16. Avtonəqliyyat vasitəsinin hər hansı qeyri-qanuni ticarət, daşıma və ya cinayət məqsədilə istifadə edilməsi;

19.17. Xidmət və ya iş vaxtı baş verməsindən asılı olmayaraq, avtonəqliyyat vasitəsinin Sığortalının ailə üzvləri, işçiləri və ya ona xidmət edən şəxslər tərəfindən qaçırılması, oğurlanması və ya bunlara cəhd edilməsi;

19.18. Avtonəqliyyat vasitəsinin təyyarələrin enib qalxdığı təyyarə limanı, aerodrom və ya hərbi bazanın ərazisində istifadə edilməsi;

19.19. Aşağıdakı məqsədlər üçün hər hansı avtonəqliyyat vasitəsinə sahiblik, texniki xidmət, onun istismarı və saxlanması ilə əlaqədar baş verən istənilən zərər, xəsarət və yaranan məsuliyyət:

a)nitroqliserin, dinamit və bunlara bənzər başqa partlayıcı maddələrin daşınması;

b)mayeləşdirilmiş neftin və ya neft məhsullarının tarasız daşınması;

c)maye, sıxılmış və ya qazabənzər formada kimyəvi maddələrin və ya qazların daşınması;

d)ictimai yollardan kənarda avtonəqliyyat vasitəsinin avadanlıq kimi istifadəsi.

**Maddə 20. Sığortanın əhatə etdiyi ərazi**

Tərəflərin başqa cür razılaşdığı və belə razılaşmanın sığorta müqaviləsində (sığorta şəhadətnaməsində) təsbit olunduğu hallar istisna olmaqla, bu sığorta Azərbaycan Respublikasının ərazisini əhatə edir.

**Maddə 21. Sığorta müqaviləsinin bağlanması qaydası**

21.1. Bu Qaydalara əsasən Sığortaçı sığorta müqaviləsini Sığortalı ilə bağlayır.

21.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni dolduraraq Sığortaçıya təqdim edə bilər. Təqdim edildiyi təqdirdə bu ərizə sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.

21.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

21.3.1. Sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı), ünvanı və telefon nömrəsi;

21.3.2. sığorta predmeti haqqında məlumat;

21.3.3. Riskin dərəcəsini və sığorta haqqını müəyyənləşdirmək üçün lazım olan digər məlumatlar.

21.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı hər hansı bir formada bağlanır:

21.4.1. Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

21.4.2. Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

21.5. Bu qaydaların 21.4-cü bəndində nəzərdə tutulmuş sığorta müqaviləsinin bağlanma formaları elektron sənəd formasında da bağlana bilər.

21.6. Sığorta şəhadətnaməsi tərtib olunduğu halda, sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

21.7. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.

21.8. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

21.9. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

**Maddə 22. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası**

22. 1.Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.

22.2. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

22.2.1. Sığorta predmeti artıq mövcud olmadıqda;

22.2.2. Aşağıdakı hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və ya Sığortalı hüquqi şəxsləğv olunduqda:

22.2.2.1. Sığorta müqaviləsini bağlamış Sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmışavtonəqliyyat vasitəsini qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək Sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda Sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış Avtonəqliyyat vasitəsini qəbul edən şəxsə keçir;

22.2.2.2. Qanunvericilikdə və ya sığorta müqaviləsində başqa şərtlər müəyyən edilməmişdirsə, Sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras avtonəqliyyat vasitəsinin yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də Sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

22.2.2.3. Sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin sığorta müqaviləsi üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir;

22.2.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

22.2.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

22.2.5. Sığorta marağı artıq mövcud olmadıqda;

22.2.6. Sığortalı sığorta haqqını qanunvericilikdə və Sığorta müqaviləsində müəyyən edilənqaydada ödəmədikdə;

22.2.7. Sığortalı və ya Sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi iləçıxış etdikdə.

22.3. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə Sığortalı məhkəmənin qərarı ilə fəaliyyətqabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə Sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

### Maddə 23. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

23.1. Bu Qaydaların 22.2-ci bəndində göstərilən hallarda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

23.2. Sığorta müqaviləsinə bu Qaydaların 22.2.7-ci maddəsinə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

23.3. Belə bildiriş sığorta müqaviləsinin xitam tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən xitam edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi üçün kifayətdir və sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

### Maddə 24. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

24.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

24.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını)

qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

24.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

24.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 24.1-ci və 24.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

24.5. Sığorta müqaviləsi bu Qaydaların 22.3-cü maddəsində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 24.3-cü və 24.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

24.6. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 25. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması**

Sığorta müqaviləsi bağlanarkən Sığortalı və Sığortaçı qanunvericiliyə zidd olmayan başqa şərtlər barədə razılığa gələ bilərlər.

**Maddə 26. Sığorta təminatının müddətinin qüvvəyə minməsi və sona çatması**

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

**Maddə 27. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri**

27.1. Sığortalı Sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən, sığorta riskinin artması ilə bağlı bütün hallar, xüsusən də aşağıdakı hallar barədə Sığortaçıya təxirə salınmadan məlumat verməlidir:

27.1.1. İcarə və ya hər hansı digər mülki-hüquq müqaviləsi əsasında avtonəqliyyat vasitəsinin və (və ya) onun əlavə avadanlığının üçüncü şəxslərə verilməsi, həmçinin girov müqaviləsinə əsasən avtonəqliyyat vasitəsinin yüklü edilməsi;

27.1.2. Avtonəqliyyat vasitəsinə mülkiyyət hüququnun üçüncü şəxslərə keçməsi;

27.1.3. Avtonəqliyyat vasitəsinin sığorta hadisəsi hesab olunmayan hadisə nəticəsində ciddi zədələnməsi və ya məhv olması;

27.1.4. Avtonəqliyyat vasitəsinin ərizə formasında və ya sığorta şəhadətnaməsində göstərilmiş məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilməsi;

27.1.5.Avtonəqliyyat vasitəsinin Dövlət Yol Polisi orqanlarında qeydiyyatdan çıxarılması və ya avtonəqliyyat vasitəsinin Dövlət Yol Polisi orqanlarında təkrar qeydiyyata salınması;

27.1.6.Avtonəqliyyat vasitəsinin qeydiyyat sənədlərinin itirilməsi, oğurlanması və ya dəyişdirilməsi;

27.1.7.Avtonəqliyyat vasitəsinin gövdəsinin və ya mühərrikinin dəyişdirilməsi;

27.1.8.Avtonəqliyyat vasitəsinin açarlarının itirilməsi;

27.1.9. Sığorta müqaviləsinin şərtlərinə müvafiq olaraq, səlahiyyətləndirilmiş sürücülərin siyahısında dəyişikliklərin edilməsi;

27.1.10. Avtonəqliyyat vasitəsinə aid olan və ərizə formasında Sığortalı tərəfindən göstərilən məlumat və halların dəyişməsi;

27.2. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

27.2.1. Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;

27.2.2. Əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;

27.2.3. Bu şərait yarandıqdan sonra sığorta müqaviləsinə xitam verə bilər.

**Maddə 28. Sığorta haqqının hesablanması və ödənilməsi**

28.1.Sığorta haqqının məbləği və ya onun hesablanması və ödənilməsi qaydası Sığorta müqaviləsi ilə müəyyən edilir.

28.2.Sığorta haqqını nəğdsiz formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsinin əsasını təşkil edən sığorta müqaviləsinin, yaxud sığorta şəhadətnaməsinin nömrəsinə istinad etməlidir.

28. 3.Sığorta haqqının ödənilməsi qaydası və forması sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.

28.4. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

**Maddə 29. Sığorta haqqının vaxtında ödənilməməsi**

29.1. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 29.2-ci bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.

29.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.

**Maddə 30. Valyuta haqqında qeyd-şərt**

30.1. Sığorta məbləğinin, azadolma məbləğinin və tələblərin sığorta müqaviləsində xarici valyuta ilə ifadə olunduğu hallarda, bütün ödənişlər ya Azərbaycan Respublikası Mərkəzi Bankının ödənişin həyata keçirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.

30.2. Əgər sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlər Azərbaycan manatı və ya Sığorta müqaviləsinin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, Sığorta müqaviləsinin ifadə olunduğu valyutaya çevirmə Azərbaycan Respublikası Mərkəzi Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata keçirilir.

**Maddə 31. Sığortaçı tərəfindən nəzarət**

31.1. Əgər sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsi məhv olarsa və ya ona maddi ziyan dəyərsə, Sığortalı Sığortaçıya həmin avtonəqliyyat vasitəsi təmir edilməmişdən və maddi ziyanın fiziki sübutları itməmişdən əvvəl avtonəqliyyat vasitəsini yoxlamaq üçün lazımı qədər vaxt və imkan verməlidir.

31.2. Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar Sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır. Sığortalı Sığortaçının tələbi ilə ona imkan dairəsində kömək etməlidir. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda Sığortaçı öz hesabına

Sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır. Sığortalı Sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət edə, saziş bağlaya və ya vəd verə bilməz.

**Maddə 32. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri**

32.1. Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı və ya Sığorta olunan şəxs, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

32.2.Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.

32. 3.Sığortalı Sığortaçıya sığorta hadisəsi üzrə araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir;

32.4. Sığorta təminatı verildikdən sonra Sığortalının itkiləri üçüncü şəxslər tərəfindən tam şəkildə, yaxud qismən ödənilərsə, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ərzində qanuna görə Sığortalını sığorta təminatını əldə etmək hüququndan tam şəkildə və ya qismən məhrum edən şərait yaranarsa, üçüncü şəxslərdən vəsaitləri aldıqdan sonra, yaxud Sığortaçıdan qanun əsasında sığorta təminatının müvafiq hissəsini Sığortaçıya qaytarmaq əsasında ödənişinin ödənilmə tələbi alındıqdan sonra 5 iş günü ərzində müvafiq məbləği geri qaytarmalıdır.

32.5. Sığorta hadisəsinin baş verməsi və vurulan zərərin həcminin sübuta yetirilməsi öhdəliyini Sığortalı daşıyır.

32.6. Avtonəqliyyat vasitəsinin oğurlanması və ya qaçırılması hallarında Sığortalı Sığortaçıya avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini və avtonəqliyyat vasitəsinin açarlarını (bütün komplektləri) təhvil verməlidir. Sığortalı bunları Sığortaçıya təhvil vermədiyi təqdirdə səbəbləri göstərməklə yazılı surətdə izahat verməlidir.

**Maddə 33. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

33. 1.Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:

33.1. 1.Sığorta hadisəsi haqqında yazılı ərizə;

33.1.2. Sığorta müqaviləsinin (Sığorta şəhadətnaməsinin) əsli;

33.1.3.Sığorta hadisəsinin baş verməsini təsdiq edən arayış;

33.1.4. Zərərin həcmini müəyyənləşdirən sənədlər;

33.1.5. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

**Maddə 34. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri**

34.1. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

34.2. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası bu Qaydalara əsasən bağlanan Sığorta müqaviləsi ilə müəyyən edilir.

34.3. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla Sığortalıya ödənilir. Sığorta müqaviləsində azadolma məbləği kimi göstərilmiş məbləğ Sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir sığorta vəsatətinin (tələbinin) və (və ya) bir hadisə üzrə irəli sürülən bir neçə vəsatətin yekun məbləğindən çıxılır və Sığortaçı belə vəsatətin və ya vəsatətlərin azadolma məbləğinin çıxılmasından sonra qalan məbləği ücün məsuliyyət daşıyır. Azadolma məbləğinin tətbiqindən əvvəl Sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir vəsatətə və ya eyni hadisə üzrə bir neçə vəsatətə münasibətdə ödəniləcək sığorta ödənişinin məbləği sığorta müqaviləsinin müvafiq Fəslində göstərilmiş müvafiq sığorta məbləğini və məsuliyyət hədlərini aşmamalıdır.

34.4. Sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində Sığortalıya dəyən real zərərin miqdarından çox ola bilməz.

34.5. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun.

34.6. Sığorta müqaviləsində real zərərin ödənildiyi an zərərin natural formada ödənilməsi qaydası Sığortaçı tərəfindən nəzərdə tutula bilər.

34.7. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra, sığorta ödənişinin verilməsi Sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilə bilər:

34.7.1. Zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi;

34.7.2. sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün Sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

34.7.3. sığorta predmeti olan, yaxud zərərçəkmiş üçüncü şəxsə məxsus əmlakın təmiri və ya bərpası;

34.7.4. sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

34.8. Sığorta ödənişinin verilməsi zamanı Sığortaçı sığorta ödənişi məbləğindən Sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

34.9. Sığortalının üçüncü tərəfdən təzminat alması halında, bu təzminatın məbləği azadolma məbləğinin tətbiqindən əvvəl sığorta ödənişi məbləğindən çıxılmalıdır.

**Maddə 35. Sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti**

35.1. Qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulan sığorta ödənişindən imtina halları istisna olmaqla, Sığortaçı bu Qaydaların 33-cü maddəsində sadalanan sənədləri aldıqdan sonra 7 iş günü ərzində ödəniş aparılmasının forması, qaydası və sair ilə əlaqədar məlumatları əks etdirən ödənişə əsas verən sənədi (sığorta aktı, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırılması üçün bu sənədi Sığortalıya və (və ya Sığorta olunana, yaxud üçüncü səxsə) təqdim edir, yaxud sığorta ödənişinin verilməsindən imtina olunduğu halda imtinanın səbəblərini əsaslandırmaqla Sığortalıya yazılı məlumat verir.

35.2. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, lakin sığorta müqaviləsi üzrə təminat qismən sığorta təminatı sayılmır.

35.3. Qanunvericilikdə və ya bu Qaydalarda nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

**Maddə 36. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

36.1. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir:

36.1.1. Bu Qaydaların 27.1 və 32.1-ci bəndlərinin tələblərinə əməl edilməməsi nəticəsində, o cümlədən sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda ;

36.1.2. Qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, Sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

36.1.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

36.1.4. Sığortalının sığortalanmış avtonəqliyyat vasitəsinə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, Sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

36.1.5. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;

36.1.6. Sığortalının zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərər vuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

36.1.7. Baş vermiş hadisənin qanunvericiliyə və ya Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

36.1.8. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;

36.1.9. sığorta hadisəsinin sığorta haqqının növbəti hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilmə müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

36.1.10. sığorta hadisəsinin bu Qaydaların 29.1.-ci bəndində nəzərdə tutulmuş halda Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.

36.1.11. Bu Qaydalarda nəzərdə tutulan mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq Sığortalının sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;

36.1.12. Yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, Sığortalı tərəfindən Sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;

36.1.13. Sığortaçının nümayəndəsi hadisə yerinə gəlib çıxanadək, Səlahiyyətləndirilmiş sürücünün, aşağıda göstərilən səbəblərdən hadisə yerini tərk etməsi halları istisna olmaqla, hadisə yerini tərk etməsi:

36.1.13.1. bədən xəsarəti alması ilə əlaqədar Səlahiyyətləndirilmiş sürücünün tibb müəssisəsinə aparılması;

36.1.13.2. Səlahiyyətləndirilmiş sürücünün hadisə nəticəsində bədən xəsarəti almış sərnişinləri və ya üçüncü şəxsləri tibb müəssisəsinə aparması;

36.1.13.3. Yol-nəqliyyat hadisəsinin rəsmiləşdirilməsi ilə əlaqədar səlahiyyətləndirilmiş sürücünün səlahiyyətli dövlət orqanları tərəfindən aparılması.

## Maddə 37. İtkilərin qarşısının alınması və azaldılması

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Avtonəqliyyat vasitəsini xilas etmə, bərpa etmə və ya onun qorunub saxlanması məqsədilə görülən bütün belə tədbirlər bütün maraqlı tərəflərin mənafeyi üçün həyata keçirilmiş hesab edilir və tərəflərdən heç birinin hüquqlarına təsir etmir. Belə tədbirlərin görülməsi zamanı Sığortalı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.

## Maddə 38. Zərərin azaldılması məqsədilə çəkilən xərclər

38.1. Sığortaçı tərəfindən əvəzi ödənilməli olan zərərləri azaltmaq məqsədilə Sığortalının çəkdiyi xərclər Sığortaçı tərəfindən ödənilir, bu şərtlə ki, belə xərclər zərurət və ya Sığortaçının göstərişlərini yerinə yetirmək məqsədilə ortaya çıxmış olsun.

38.2. Sığortaçı zərərlərin qarşısını almaq və ya azaltmaq məqsədilə Sığortalının bilərəkdən ağlabatan və mümkün (səmərəli) tədbirləri görməməsi nəticəsində ortaya çıxan zərərləri ödəmək öhdəliyindən azad edilir.

**Maddə 39. Subroqasiya hüququ**

39.1. Subroqasiya hüququ, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş Sığortaçının istifadə etmək hüququdur.

39.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq sığorta ödənişini vermiş Sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

39.3. Sığortalı sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə Sığortaçını təmin etməlidir.

39. 4.Sığortalı zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

39.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış digər sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə Sığortalı qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər. Sığortalının hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təzminat məbləğləri ilk növbədə Sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.

**Maddə 40. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti**

Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 41. Mübahisələrin həlli qaydası**

Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsindən irəli gələn mübahisələr Sığortaçı ilə Sığortalı arasında arasında danışıqlar yolu ilə, tərəflər razılığa gələ bilmədikdə isə qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

**Maddə 42. Marağın keçməsi**

42.1. Avtonəqliyyat vasitəsinin satılması və yaxud ondan istifadə hüquqlarının digər şəxsə verilməsi halında, Sığortaçının razılığı olmasa, Sığorta müqaviləsi ilə verilən sığorta təminatı, alıcıya və ya Avtonəqliyyat vasitəsinə hüquqları alan hər hansı digər şəxsə aid edilmir. Bu halda Sığortaçı ilə Sığortalı və ya Avtonəqliyyat vasitəsi xeyrinə özgəninkiləşdirilən şəxs arasında yeni Sığorta müqaviləsi bağlanıla bilər.

42.2. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortalı vəfat etdikdə və ya ləğv edildikdə qanuni vərəsələrin və ya icraçıların Sığortalının ölümündən (ləğv edildikdən) kecmiş 30 (otuz) gün müddətində Sığortaçı ilə razılaşdırılması halında, Sığorta müqaviləsi, həmin müqavilənin qüvvədən düşmə müddətinə qədər Sığortalının varisləri və ya miras qoyulan əmlakın üzərində nəzarəti həyata keçirən icraçılar üçün öz etibarlılığını saxlamağa davam edəcək.

**Maddə 43. Məlumatın təhrif edilməsi və aldatma**

Sığortalı və ya onun hər hansı nümayəndəsi Sığorta müqaviləsi və ya Sığortaçı və (və ya) hər hansı digər Sığortaçı ilə bağlanmış və artıq öz qüvvəsini itirimiş Sığorta müqaviləsi üçün mühüm əhəmiyyət kəsb edən şərait və ya məlumatı gizlədərsə, yaxud təhrif edərsə və ya bilə-bilə aldatma yolu ilə belə aldatmanın zərərin həcmi və digər məsələlərə aid olmasından asılı olmayaraq, yalan vəsatət (tələb) irəli sürərsə, Sığorta müqaviləsi və bütün tələblər etibarsız hesab ediləcək.

**"Meqa Sığorta" ASC**

**Maddə 44. Avtonəqliyyat vasitələrinin könüllü sığortası üzrə**

**sığorta tariflərinin əsaslandırılması**

I. **Avtonəqliyyat vaistəsinə dəymiş zərər üzrə:**

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı (q) - 0,03;
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) - 20000 manat;
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 3000 manat; 4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) - 450.

Tn,Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni,onun əsas hissəsini və risk üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100qSö/So = 0,03.100.3000/20 000 = 0,45 (manat).

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal **a=2** olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

$$Tr = 1{,}2Tə.a.((1 - q)/(nq))^{1/2} = 0{,}45.1{,}2.2.((1-0{,}03)/(450.0{,}03))^{1/2} = 0{,}29 \text{ (manat)}.$$

Tn = Tə + Tr = 0,29 + 0,45 = 0,74 manat.

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 70%, yüklənmə - 30%. O cümlədən: işlərin apanlması xərcləri - 29%, tarif mənfəəti -1%. Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) = 0,74/(1 - 0,3) = 1,06 (manat).

Tarif dərəcələri nəqliyyat vasitəsinin növündən və istifadə tərzindən, sığorta risklərinin tərkibindən və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Ona görə də, yekun tarif dərəcəsi 1,0 % - 5,0% aralığında dəyişir.

II. **Mülki məsuliyyətin sığortası üzrə:**

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı q = 0,01;

2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) - 14 000 manat;

3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 6 000 manat;

4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) - 450.

Tn,Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni,onun əsas hissəsini və risk üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100qSö/So = 0,01.100.3000/15 000 = 0,20 (manat).

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal **a=2** olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

$$Tr = 1{,}2Tə.a.((1 - q)/(nq))^{1/2} = 0{,}20.1{,}2.2.((1-0{,}01)/(450.0{,}01))^{1/2} = 0{,}23 \text{ (manat)}.$$

Tn = Tə + Tr = 0,20 + 0,23 = 0,45 manat.

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 70%, yüklənmə - 30%. O cümlədən: işlərin apanlması xərcləri - 29%, tarif mənfəəti -1%. Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) = 0,45/(1 - 0,3) = 0,64 (manat).

Tarif dərəcələri nəqliyyat vasitəsinin növündən və istifadə tərzindən, sürücünün yaşından və təcrübəsindən, təminat həcmindən və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Ona görə də, yekun tarif dərəcəsi 0,01 % - 5,0% aralığında dəyişir.

### III. Sərnişinlərin və səlahiyyətləndirilmiş sürücülərin fərdi qəza sığortası.

Bu halda biz asılı hadisələr ehtimal modelini ilə rastlaşırıq, A hadisəsi – sığorta hadisəsi sayıla biləcək yol-qəza hadisəsi zamanı 14-cü maddədə sadalanan hadisələrdən birinin baş verməsi ehtimalı. Ehtimalların hasili teoreminə əsasən iki hadisənin birinci hadisənin ehtimalının digərinin şərti ehtimalı ilə hasilinə bərabərdir: P(AB)=P(A)*P(B/A).

Əldə olan statistikaya görə:

P(A)=0,028.

| | P(B/A) | P(AB) |
|---|---|---|
| Ölüm halında | 0,0030 | 0, 000084 |
| Hər hansı bir ətrafın (ayaq, pəncə, əl və ya bilək) itirilməsi | 0,0052 | 0,0001456 |
| Hər iki gözdə görmə qabiliyyətinin tam itirilməsi | 0,0006 | 0,0000168 |

| | | |
|---|---|---|
| Çarpayı və ya əlil arabasına bağlılıqla nəticələnən iflic | 0,005 | 0,00014 |
| Tam ruhi pozğunluq | 0,00068 | 0,00002 |
| Nitqin tam və bərpa olunmaz şəkildə itirilməsi | 0,0008 | 0,000022 |
| Hər iki qulaqda eşitmə qabiliyyətinin tam və bərpaolunmaz şəkildə itirilməsi | 0,0005 | 0,000014 |
| Bir gözün görmə qabiliyyətinin tam və bərpa olunmaz şəkildə itirilməsi | 0,007 | 0,00002 |
| Bir qulaqda eşitmə qabiliyyətinin tam və bərpa olunmaz şəkildə itirilməsi | 0,0025 | 0,00007 |
| Budun və ya çiynin tam hərəkətsizliyi | 0,16 | 0,0045 |
| Dizin, dirsəyin və ya biləyin tam hərəkətsizliyi | 0,048 | 0,0014 |
| Əlin baş barmağının itirilməsi | 0,002 | 0,000056 |
| Əlin şəhadət barmağının itirilməsi. | 0,0004 | 0,0000112 |
| Əlin hər hansı digər barmağının itirilməsi | 0,06 | 0,002 |
| Ayağın baş barmağının itirilməsi | 0,00034 | 0,00001 |
| Ayağın hər hansı digər barmağının itirilməsi | 0,05 | 0,0014 |

Bu halda yuxarıdakı komponentlərin hamısı üzrə ümumi netto-dərəcənin əsas hissəsi üçün alarıq:

$T_ə$ = (0,000084+0,0001456+0,0000168+0,00014+0,00002) *1+(0,000022+0,000014) *0,75+(0,00002+0,00007)*0,5+0,0045*0,4+0,0014*0,25+(0,000056+0,00001)*0,1+0,0000112* 0,05++0,002*0,02+0,0014*0,03=0,0027 (0,27%).

Risk üstəliyi üçün:

Bu hadisələr asılı olmadıqlarından, ümumiyyətlə sığorta hadisəsinin baş verməsi ehtimalı yuxarıda sadalanan ehtimalların cəmindən ibarət olub q=0,01 ədədinə bərabərdir.

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,90 götürək. Bu halda həmin ehtimala uyğun əmsal **a=1.3** olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

(n- bağlanılacaq müqavilələrin sayını 450 ədəd)

$T_r$ = 1,2*0,27*1,3*((1-0,01)/450*0,01)$^{1/2}$ = 0,20 manat.

Ümumi netto-dərəcə

$T_n=T_ə+T_r$ = 0,27 + 0,20 = 0,47 manat alırıq.

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 70%, yüklənmə - 30%. O cümlədən: işlərin apanlması xərcləri - 29%, tarif mənfəəti -1%. Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) = 0,47/(1 - 0,3) = 0,67 manat

Tarif dərəcələri nəqliyyat vasitəsinin növündən və istifadə tərzindən, sürücünün yaşından və təcrübəsindən, təminat həcmindən və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Ona görə də, yekun tarif dərəcəsi 0,01 % - 5,0% aralığında dəyişir.

Beləliklə, bütövlükdə üç təminat növü üzrə birgə brutto-dərəcə:

1.06+0.64+0.67 = 2.37 manat

Sığortaçının bu tariflərə, sığorta riskinin dərəcəsinin müəyyən etməyə əhəmiyyətli təsiri olan şəraitlə bağlı müəyyən düzəlişlər etmək hüququ vardır.